# كيف اتخلص من ذنوب الخلوات

# Xəlvətdə edilən günahlar

Azərbaycan dili

اللغة الأذرية


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri




**Tərcümə edən: İlqar Eyvazoğlu**


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

# İnsan təbiətcə günahkardır
# Müsəlmana vacibdir ki, xəta etdikdə tövbə və istiğfar etməyə tələssin.

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allah ﷻ qulunun tövbə etdiyi zaman tövbəsinə sevinər.

Hədisdə gəlib ki, Peyğəmbər ﷺ buyurur:

“Allah ﷻ , Səhrada dəvəsini itirən birisinin yuxudan ayıldığı zaman dəvəsini yanına gəldiyini görüb sevindiyindən daha çox, qulunun tövbəsinə sevinər”.[1]

Müsəlman xəlvətdə edilən günahlardan uzaq durmalıdır. Allah ﷻ günahını camaatdan gizlədib, Allahdan gizlətməyənləri məzəmmətləmişdir.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿يَسۡتَخۡفُونَ مِنَ ٱلنَّاسِ وَلَا يَسۡتَخۡفُونَ مِنَ ٱللَّهِ وَهُوَ مَعَهُمۡ إِذۡ يُبَيِّتُونَ مَا لَا يَرۡضَىٰ مِنَ ٱلۡقَوۡلِۚ وَكَانَ ٱللَّهُ بِمَا يَعۡمَلُونَ مُحِيطًا ١٠٨﴾ [النِّسَاء : ١٠٨]

“Onlar (öz günahlarını )insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar (Allahın) razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə,

[1] Buxari və Muslim

O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir”.[2]

Peyğəmbər ﷺ xəlvətdə edilən günahlardan çəkindirmişdir. O ﷺ buyurur:

“Ümmətimdən elə insanları bilirəm ki Qiyamət günü ağ tihəmə dağları qədər savablarla gələcəklər, amma Allah ﷻ onları sovrulmuş toz dənəciklərinə çevirəcək.
Səvban dedi: “Ey Allahın Rəsulu, onları bizə vəsf et, bizə başa sal ki, bilmədiyimiz halda onlardan olmayaq.
O ﷺ dedi: “Onlar sizin qardaşlarınızdır, sizin dərinizdəndirlər. Onlar da gecəni sizin kimi yatırlar, lakin onlar Allahın ﷻ qadağaları ilə baş-başa qalanda onları pozan insanlardır”.[3]

Müsəlman xəlvət günahlarından bir neçə səbəblə xilas olur:

- Dua ilə Allaha ﷻ dönmək və günahları və asilikləri ondan uzaqlaşdırmaq üçün Ona yalvarmaqla.
- Nəfslə cihad etmək, onun vəsvəsəsini uzaqlaşdırmaq və onu Allaha ﷻ itaətlə təmizləməyə çalışmaqla.
- Mümkün qədər xəlvət və təklikdən çəkinmək və saleh və xeyirli insanlara qarışmaqla.

---

[2] ən-Nisa surəsi, 108-ci ayə
[3] İbn Məcəh 4245

- Allahın ﷻ səni izləməsin və hər bir anında müsəlman kəsdən xəbərdar olduğunu hiss etməklə.

Müsəlman o günahı işləyərkən hörmət və ehtiram bəslədiyi insanların ona baxdığını təsəvvür etsə, məxluqatdan utanmasından çox, Allahdan ﷻ utandığını hiss edər.

Hədisdə gəlib ki, Peyğəmbər ﷺ buyurur:

“Ailə üzvlərindən utandığın kimi Allahdan da utan”.[4]

- Ölümü xatırlamaqla. Əgər onun yanına asi və günahkar olduğu halda gəlsə, o bu vəziyyətdə ikən Rəbbi ilə necə qarşılaşacaq?
- Allahın ﷻ saleh bəndələri üçün nələr hazırladığını, asi və günahkarlara nə vəd etdiyini xatırlamaqla.

Şairin bu sözü necə də təəccüblüdür:

Əgər bir gün sonsuza qədər tənha qalsan

Tənhayam demə, məni izləyən var denən

Düşünmə ki, Allah hər hansı bir saatdan

Qafildir, ona gizli qalır gözdən itən

[4] Bəzzər 2642